| | "TELEKOM İNVEST" MMC-nin KEYFİYYƏT SAHƏSİNDƏ SİYASƏTİ | Sənəd No./Document №: | TİN-KİS-F-001 |
|---|---|---|---|
| | | Hazırlanma tarixi/Issue date: | 03.10.2018 |
| | | Təftiş No./Revision №: | 05 |
| | | Təftiş tarixi/Revision date: | 12.01.2023 |

**Təsdiq edirəm:**

**"Telekom İnvest"**
**MMC– nin Baş Direktoru**

**__________________Ə.H.Əhmədov**

**"12" yanvar 2023-cü il**

**"Telekom İnvest" MMC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) keyfiyyət siyasətinin əsas məqsədi, Cəmiyyət tərəfindən qəbul edilmiş strateji planın hədəflərinə çatmaq üçün dəstək verməkdir. Cəmiyyətin yüksək səviyyəli maddi-texniki bazası nəzərə alınaraq, fəaliyyətin əsas istiqaməti müasir tələblərə cavab verən telekommunikasiya xidmətlərinin göstərilməsidir. Bu, xidmətin keyfiyyətinin artırılması və Cəmiyyətin əməkdaşlarının bilik potensialının daha da inkişaf etdirilməsi ilə birlikdə təşkil edilir.**

**Bu məqsədlərə nail olmaq üçün 2023-cü il üzrə aşağıdakı hədəfləri müəyyənləşdiririk:**

* *Əməkdaşlarımızın və müştərilərimizin gözləntilərini qarşılayan, ISO 9001: 2015 tələblərinə tam olaraq cavab verən sistemi qoruyub saxlamaq və işimizi davamlı şəkildə inkişaf etdirmək.*
* *Müştərilərimizi, əməkdaşlarımızı və işimizə qanuni maraq göstərən hər hansı üçüncü tərəfləri hədəflərimiz, məqsədlərimiz,tədbirlər planımız və siyasətimiz barədə məlumatlandırmaq.*
* *Keyfiyyət sahəsində hədəflərinin Cəmiyyət daxilində müvafiq səviyyədə müəyyən olunduğunu, nəzərdən keçirildiyini və başa düşülməsini təmin etmək. Bu keyfiyyət hədəflərin ölçülməli və keyfiyyət siyasətinə uyğun olmasını təmin etmək.*
* *Keyfiyyətin İdarəolunması Sisteminin qorunmasını və inkişaf etdirilməsini təmin etmək üçün tam öhdəlik vermək və lazımi resursları təmin etmək.*
* *Həm bu siyasətin, həm də Keyfiyyətin İdarəolunma Sisteminin effektivliyini daim nəzərdən keçirmək.*
* *Qarşılıqlı faydalı əlaqələr qurmaq üçün təchizatçılarımızla əlaqələr qurmaq.*
* *Daimi olaraq müştərilərimizlə görüşərək və onların rəylərinə əsasən hərəkət edərək müştərilərimizin keyfiyyətli məhsul və xidmət ehtiyaclarını anlamaq və cavab vermək.*
* *Sağlam işə qəbuletmə sistemlərimizi tətbiq edərək texniki peşəkarlığımızın ən yüksək standartlara cavab verməsini təmin etmək.*
* *Geosiyasi dəyişiklikləri nəzərə alıb fürsətləri dəyərləndirmək.*
* *Müştərilərimizlə, yeni Vendorlarla mükəmməl əlaqələr qurmağla rəqabət gücümüzü artırmaq.*
* *Personalın müntəzəm olaraq keyfiyyət, işgüzar davranış, əməyin təhlükəsizliyi sahəsində biliklərinin artırılması üçün təlimləri təşkil etmək.*